# 26 fevral XOCALI SOYQIRIMI GÜNÜDÜR


# İŞIQ

İctimai-siyasi qəzet

Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №4 (7338) | 26 fevral 2014-cü il | çərşənbə | Qiyməti 20 qəp.




## XOCALI QURBANLARININ XATİRƏSİ YAD EDİLDİ




**Fevralın 26-da şəhər Mərkəzi Mədəniyyət evində Xocalı soyqırımının 22 illiyi münasibətilə şəhər icra hakimiyyətinin şəhər ictimaiyyətinin nümayəndələri ilə birgə anım tədbiri keçirilmişdir.**

Öncə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri gənc rəsm həvəskarlarının Xocalı qurbanlarına həsr etdikləri rəsm sərgisinə baxmışlar.

Yığıncağı Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov açmışdır.

Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş anım tədbirində geniş nitq söyləmişdir. O demişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Xocalı soyqırımının iyirmi ikinci ildönümü şəhərimizdə silsilə tədbirlərlə qeyd edilir. Keçirilən tədbirlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, faciələr, deportasiya və soyqırımlar real faktlar əsasında gənc nəslə, geniş ictimaiyyətə çatdırılır.

Araşdırmalar göstərir ki, ermənilərin tarixi Azərbaycan torpaqlarında məskunlaşması onların ruslarla sıx əlaqələri, vaxtaşırı dəstək almaları hesabına mümkün olmuşdur. Hələ rus çarı I Pyotr 1723-cü ilin noyabr ayının 10-da ermənilərin bu ərazilərə köçürülməsi barədə fərman verir. Ermənilər himayəyə götürülür. Onlar İrandan, Türkiyədən İrəvan xanlığına köçürülür. Erməni icmaları yaradılır. Onlara xüsusi imtiyazlar verilir. 1801-ci ildən başlayaraq azərbaycanlıları indi Ermənistan adlanan ərazidən köçürməyə başlayırlar.

XIX əsrin əvvəllərində Rusiya-İran müharibələrindən sonra bu proses daha da güclənir.

Azərbaycan xalqı 200 ildən artıq bir müddət ərzində erməni-millətçi-şovinistlərin davamlı olaraq etnik təmizləmə, terror və soyqırım siyasətinə məruz qalmış,tarixin müxtəlif mərhələlərində öz əzəli torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş, ermənilərin törətdikləri soyqırımların ağır nəticələri ilə üzləşmişdir.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir.

1991-ci ilin noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi üzərində general Məhəmməd Əsədovun, İsmət Qayıbovun, Vəli Məmmədovun, Tofiq İsmayılovun, Alı Mustafayevin və başqalarının mindiyi hərbi vertalyotun vurulub yandırılması, Xocalı soyqırımına hazırlığın ilkin mərhələsi idi.




Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil oldu. Ermənistan silahlı qüvvələri həmin gecə bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan atılan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyildir.

Ermənilərin dinc əhaliyə qarşı törətdikləri soyqırım faciəsi zamanı xocalılar əsl qəhrəmanlıq nümunəsi göstərmişlər. Bu şəhərin ölməzlik tarixini yazmışlar.

1992-ci ilin martında yaradılan deputat istintaq komissiyası faciənin baş vermə səbəblərini, miqyasını və təqsirkarları müəyyən etdi. Bu faciənin baş verməsində bilavasitə günahı olanlardan bəziləri layiqli cəzasını aldı. Digərləri də gec-tez öz cəzalarını alacaqlar.

Xocalı soyqırımına əsl siyasi-hüquqi qiyməti isə 1994-cü ilin fevralında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən verildi. Hər il 26 fevral-Xocalı soyqırımı günü kimi qeyd edilməyə başlanmış, həmin gün saat $17^{00}$-da şəhid xocalıların xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin fəaliyyətinin əsas istiqamətləri də məhz bu amala xidmət edir.

Ümummilli məsələlərdə Türkiyə və Azərbaycan parlament nümayəndə heyətləri Avropa Şurasında birgə fəaliyyət göstərirlər.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın rəhbərliyi ilə “Xocalıya ədalət” layihəsi çərçivəsində Xocalı soyqırımının, ermənilərin törətdikləri digər vəhşiliklərin dünya ictimaiyyəti tərəfindən tanınması, hüquqi-siyasi qiymətini alması üçün kompleks tədbirlər həyata keçirilir.

Cinayət cəzasız qalmamalıdır. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətə-Xocalı soyqırımına əsl soyqırım hadisəsi kimi beynəlxalq hüquqi-siyasi qiymət verməlidir.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımların pisləyir, yolverilməz olduğunu bildirir. Azərbaycan xalqı 1948-ci il 9 dekabr tarixli “Soyqırım cinayətlərinin xəbərdarlıq edilməsi və cəzalandırılması” konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir.

Azərbaycanın bu haqq işinin, ədalətli mövqeyinin qalib gəlməsi üçün hər bir azərbaycanlı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin xalqımızın milli maraqlarına xidmət edən siyasi kursuna,fəaliyyətinə hərtərəfli dəstək verməlidir.

Bu yolda hər birinizə uğurlar, xalqımıza birlik, əmin-amanlıq arzu edirəm.

Xocalı soyqırımı qurbanlarına Allahdan rəhmət, yaxınlarına səbr diləyirəm.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Anım tədbirində şəhərimizdə məskunlaşmış Xocalı köçkünü A.Əzizov, 16№-li tam orta məktəbin tarix müəllimi S.İsmayılova, din xadimi Hacı Vasif çıxış etdilər. 4№-li tam orta məktəbin şagirdləri Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş kompazisiya ilə çıxış etdilər.

Şəhərimizdə məskunlaşmış Xocalı sakinlərinə maddi yardım göstərildi. Anım tədbirini şəhər icra hakimiyyəti başçısı M.T.Camalov yekunlaşdırdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

## STANSİYADA ŞƏHİDLƏRİN XATİRƏSİ ANILDI

***Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar stansiyada şəhidlər abidəsinin önünə tər qərənfillər düzüldü. Sonra «Şirvan İES» MMC-nin yığıncaq zalında rəhbərliyin, bütün sex və şöbələrin, İctimai təşkilatların nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımı qurbanlarının anım tədbiri keçirilmişdir.***

Tədbiri giriş sözü ilə YAP Ərazi İlk Təşkilatının sədri Mehman Cavadov açmış, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və onların müqəddəs ruhuna dualar oxunmuşdur. Tədbirdə müəssisənin direktoru Fəzail Süleymanov «XX əsrin faciəsi» mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Ermənilərin insanlığa qarşı törətdikləri cinayət, cinayətin qurbanları və Xocalı faciəsinin soyqırım kimi tanınması üçün aparılan ciddi işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Məruzə ətrafında stansiya Həmkarlar İttifaqı Komitəsinin sədri Nüşabə Qəhrəmanova, stansiya Veteranlar Şurasının sədri Rafiq Abdullayev, kimya sexinin rəisi Elyar Quliyev çıxış etdilər. Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə həyata keçirilən işləri qeyd edərək bildirdilər ki, Xocalı soyqırımının beynəlxalq miqyasda tanınmasının coğrafiyası ildən-ilə artır.

Xocalı faciəsini törədənlərin Azərbaycan torpaqlarında dinc əhaliyə qarşı törətdikləri soyqırıma görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəkləri qeyd edildi.

**G.RZAYEV,**
**«Şirvan İES» MMC-nin İqtisadiyyat şöbəsinin rəisi**

# DAXİLİ İŞLƏR NAZİRİ ŞİRVAN ŞƏHƏRİNDƏ RESPUBLİKANIN ON ŞƏHƏR VƏ RAYONUNDAN OLAN VƏTƏNDAŞLARI QƏBUL ETMİŞDİR

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov fevralın 22-də Şirvan şəhərində respublikanın on şəhər və rayonundan olan vətəndaşların növbəti qəbulunu keçirmişdir.**



Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, İmişli, Zərdab və Saatlıdan, eyni zamanda bölgədə məskunlaşmış Cəbrayıl rayonundan olan məcburi köçkünlərin bir qrupunu qəbul edən nazir onların müraciətlərini dinləmiş, qaldırılan məsələlərin operativ şəkildə həll edilməsi üçün aidiyyəti xidmət rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

Qəbul zamanı vətəndaşların müraciətlərinin böyük əksəriyyəti öz həllini tapmışdır. Polisin səlahiyyətinə aid olmayan məsələlərə dair ərizələrin müvafiq dövlət orqanlarına göndəriləcəyi və nəzarətdə saxlanılacağı diqqətə çatdırılmışdır.

Qəbulda iştirak edənlər bölgələrdə vətəndaşlarla mütəmadi keçirilən görüşlərə, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən müraciətlərə operativ və həssas yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıq etmiş, Prezidentin ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl və qətiyyətli siyasi kursunu bundan sonra da dəstəkləyəcəklərini vurğulamışlar.




# XOCALI SOYQIRIMININ 22-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏDBİR

**2№-li tam orta məktəbdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə baş verən Xocalı qırğını ilə əlaqədar tədbir keçirildi. Müəllimlər və şagirdlər bu tədbirə ciddi hazırlaşmışdılar.**

Şəhər Təhsil Şöbəsinin inspektoru Aslan Aslanov çıxışında dedi ki, düşmən amansız idi və bütün insani hissləri kənara qoyub quduz canavra dönmüşdü. Onun qəlbində yalnız bir «istək» alovlanırdı. Türk qanı içmək! Onların ulu babaları da belə etmişdilər. Aslan müəllim qeyd etdi ki, əziz balalar, bu vəhşilikləri öz gözlərinizlə görməsəniz də bu barədə televiziyadan, mətbuatdan geniş məlumat toplamısınız. Biz Xocalı soyqırımını dünyaya tanıtdırmağa çalışırıq. Başda Prezidentimiz İlham Əliyev olmaqla bu soyqırım haqqında dünyanın hər yerində azərbaycanlılar tərəfindən böyük işlər görülür. Siz gənclərə onu tövsiyə edirik ki, düşməni tanıyın, onların zərbələrini dəf etməyə daim hazır olun.

YAP şəhər təşkilatı sədrinin müavini Mətanət Səfərova öz çıxışında qeyd etdi ki, həmin gecə adamlar qaranlıqda, güllə, mərmi yağışının altında ayaqyalın, başıaçıq dağlara, meşələrə qaçırdı... Beləliklə Vətən- o müqəddəs torpaq erməni kafirlərinin əlinə keçdi.

Mətanət xanm dedi: mən inanıram ki, işğal altında olan bütün torpaqlarımız erməni quduzlarından xilas ediləcək. O gün uzaqda deyil.

Sonra bədii hissə başlandı. VIIIb sinifinin şagirdləri tədbirdə böyük fəallıq göstərdilər. Tədbirin aparıcıları Səbinə Nəzərli və Röya Heydərova çıxışlarının sonunda erməni işğalçılarının ünvanına söylədikləri sözlər hamının ürəyindən oldu: «Sevinmə, erməni, sevinmə! Sən vəhşiliyinə və zalımlığına görə cəzalanacaqsan. Müzəffər ordumuz hər şeyə qadirdir».

Tədbirin sonunda məktəbin direktoru Əminə Əliyeva şagirdlərə və tədbirin təşkilatçısı C.Dadaşovaya təşəkkürünü bildirdi. O, qeyd etdi ki, məktəbimiz hər il silsilə tədbirlər keçirir. Bu tədbirin isə özünəməxsus xüsusiyyətlərindən biri də odur ki, biz heç nəyi, heç kimi unutmuruq. Belə tədbirlər zamanı bir daha başımıza açılan müsibətlərin acılı günlərini yaşayırıq. Bütün ağrılarımıza baxmayaraq, biz yaşamalı, yaratmalı və düşmənə qarşı birgə mübarizə aparmalıyıq.

Xocalıya həsr olunmuş mahnılar şagirdlər tərəfindən məharətlə ifa olundu. Bayrağımıza and içən VIIIb sinif şagirdi Mirmusa Cavadov hamını bir daha əmin etdi ki, Vətən, torpaq naminə hər şeyə hazırıq.

**Ceyran DADAŞOVA,**
**2 nömrəli tam orta məktəbin ədəbiyyat müəllimi**

# XOCALISIZ 22 İL

**22 ildir ki, Xocalısızıq. Təbii ki, bunun nə olduğunu, hər bir azərbaycanlının heysiyyatına necə toxunduğunu, o dəhşətli gecənin şahidi olan insanların hansı hisslər keçirdiklərini yaxşı bilirik.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücüm etmişlər. Əvvəlcə şəhər ermənilər tərəfindən mühasirə olunmuşdur. Sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdü. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar.

Fevralın 26-ı saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir gecənin içərisində tarixdə ən dəhşətli faciələrdən biri baş vermişdir.

Həmin gecə cinayətkar ermənilərin vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin-qocalar, uşaqlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin talehi hələ də məlum deyildir.

Digər qaçqınlarımız kimi Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri də bu gün Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi günü səbirsizliklə gözləyirlər. Onlar dünya xalqlarına, dövlətlərinə beynəlxalq təşkilatlara haqqı, ədaləti, həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş soyqırımını pisləmək barədə müraciətlər edirlər. Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətləri, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası, dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaqdır. Bu bir tərəfdən Xocalı müdafiəçilərinin- şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.

Biz bir millət kimi, müasir düşüncəli gənclər kimi kinlə, nifrətlə yaşamağın tərəfdarı deyilik. Ancaq insanlar və ya cəmiyyət tarixini unudanda, dostunu-düşmənini qarışıq salanda fəlakəti təkrar-təkrar yaşamalı olur. Xocalı da elə bir dərs, elə bir ibrətdir ki, min il də keçsə unudulmamalıdır.

Biz gənclər 22 il keçəndən sonra bir daha o gecə şəhid olmuş soydaşlarımıza allahdan rəhmət diləyirik və bir daha xalqımıza «Başın sağ olsun» deyirik.Tam əminik ki, ölkə Prezidenti İlham Əliyevin bu istiqamətdə atdığı addımlar səmərəsini verəcək. Sülh danışıqları baş tutmazsa, Milli Ordumuz öz sözünü deyəcək. Axı, torpaqdan pay olmaz. Erməni millətçiləri bunları nə qədər tez dərk etsələr, bu o qədər yaxşı olar.

**Əfsanə QƏMBƏROVA,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin tələbəsi**

# ÖZƏL TÜRK LİSEYİNDƏ MÜHAZİRƏ



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 noyabr 2013-cü il tarixli «Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında» sərəncamını rəhbər tutan Tarix-diyarşünaslıq muzeyi silsilə tədbirlər həyata keçirmişdir. Bunların sırasında «M.Ə.Rəsulzadə-130» adlı sərgini, «Bir kərə yüksələn bayraq bir daha enməz!» mövzusunda tematik ekskursiyaları qeyd etmək olar.***

Tədbirlərdən biri Özəl Türk liseyində təşkil edilmişdir. Burada, «M.Ə.Rəsulzadə-müsəlman Şərqində ilk demokratik dövlətin banisi» mövzusunda mühazirə oxunmuşdur.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlandı. Muzeyin baş fond mühafizəçisi Könül Lətifova tədbiri açıb çıxış üçün sözü böyük elmi işçi Qədriyyə Quliyevaya verdi.

Məruzəçi qeyd etdi ki, 28 May 1918-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi- Azərbaycan dövlətçilik ənənəsinin tarixi və parlaq bir səhifəsidir. Öz çıxışında Q.Quliyeva M.Ə.Rəsulzadənin həyat və fəaliyyətini, istər cümhuriyyət, istərsə də mühacirət dövrlərini təhlil edərkən, bir daha vurğuladı ki, azad və müstəqil Azərbaycan uğrunda apardığı mübarizə onun həyatının mənası olub.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirərək, müstəqil Azərbaycan Respublikasını onun varisi hesab edirdi. Xalq Cümhuriyyəti hökumətinin bütün üzvlərini-Məhəmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Nəsib bəy Yusifbəylini, Əlimərdan bəy Topçubaşovu və başqalarını Azərbaycan xalqı böyük minnətdarlıq hissi ilə xatırlayır və onların əziz xatirəsini qəlbində daima yaşadacaqdır.

Mühazirəni liseyin 150 nəfərdən artıq müəllim və şagirdi maraqla dinlədi.

**Mətanət MUSAYEVA,**
**Şirvan şəhər Tarix diyarşünaslıq muzeyinin bələdçisi**

# "XOCALI FƏRYADI"

**Şirvan şəhər Mərkəzi kitabxanasının uşaq şöbəsində Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş ədəbi-bədii gecə keçirildi. Fevral ayının 26-da xalqımızın tarixinə ən dəhşətli kütləvi terror hadisəsi kimi daxil olmuş Xocalı faciəsinin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla, dərin kədər hissi ilə yad edildi.**

MKS-nin baş biblioqrafı Kəmalə İsayeva qeyd etdi ki, xalqımız bu dəhşəti unuda bilməz, yaddan çıxarda bilməz. Hər bir xalq öz tarixinin səhifələrinə nəinki bələd olmalı, həm də ötən hadisələrdən lazımi nəticələr çıxartmaga, başına gələn faciələrin bir daha təkrar olunmasına imkan verməməyə borcludur. Xocalı faciəsi belə hadisələrdəndir.

Heydər Əliyev Mərkəzinin elmi işçisi Aynur Fərzəliyeva qeyd etdi ki, faciədən 22 il ötməsinə baxmayaraq Xocalı qırğını Azərbaycan xalqının yaddaşından silinməyəcək elə bir fəlakətdir ki, ahu-zarı, iniltisi neçə əsr davam edəcəkdir.

Uşaq şöbəsinin əməkdaşı Əsmər Rəhimova, metodika şöbəsinin müdiri Şəfəq Səlimova, 16№-li tam orta məktəbi dram dərnəyinin rəhbəri Sevinc Allahverdiyeva Xocalı faciəsi barədə ətraflı məlumat verdilər. Qeyd etdilər ki, bu tədbir uşaqlarda Vətənə məhəbbət hissini daha da artıracaq, düşmənə isə daha da amansız olmaq hissini aşılayacaqdır. Sonda 16№-li tam orta məktəbin şagirdləri Xocalı faciəsinə həsr olunmuş «Xocalı fəryadı» adlı kompazisiyada şeirlər səsləndirdilər və səhnəciklər göstərdilər.

**Əsmər RƏHİMOVA,**
**multi media resursları üzrə mütəxəssis**

# TƏDBİR MARAQLA QARŞILANDI

**Şirvan şəhər Peşə liseyində Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş maraqlı tədbir keçirilmişdir.**

Təşkilatçılar Zülfiyyə Həzrətquliyeva və liseydəki «Qarabağ» klubunun müdiri Adilə Qəhrəmanova idi.

Öncə Peşə liseyinin direktoru İlyas Mirzəyev çıxış etmişdir. O, M.Ə.Rəsulzadənin çoxşaxəli həyat və fəaliyyətindən danışmışdır. Sonra demişdir ki, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı Azərbaycan Prezidentinin verdiyi sərəncam ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. Respublikanın hər yerində yubiley tədbirləri yüksək səviyyədə keçirilir. Kollektivimiz də bu görkəmli dövlət xadiminin yubileyini layiqincə qeyd edir. Bu tədbir M.Ə.Rəsulzadəyə olan məhəbbətdən irəli gəlir.

Sonra müəllimlərdən Zülfiyyə Həzrətquliyeva, Zülfiyyə Qaraşova, «Qarabağ» klubunun müdiri Adilə Qəhrəmanova, şagirdlərdən Fatimə Əliyeva, Aytən Məmmədli, Ləman Məlikova, Nərminə Hüseynova, Xatirə Orucova, Pərvin İbadova, Dilqəm Aydın oğlu, Gülsüm Abdullayeva, Nasir Əliyev və başqaları xalqımızın qarşısında tarixi xidmətləri olmuş M.Ə.Rəsulzadə şəxsiyyətinə böyük hörmətdən ətraflı söz açmışlar.

Tədbirdə fərqlənən şagirdlər lisey direktoru tərəfindən fəxri fərmanla təltif edilmişlər.

**Seyfəddin ABBASOV,**
**peşə liseyinin direktor müavini**

# «XOCALI HARAYI»

**Şirvan Dövlət Rəsm qalereyasında Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş «Xocalı harayı» adlı şəhər məktəblilərinin kağız, karandaş və sulu boyalarla çəkdikləri rəsmlərdən ibarət sərgi hazırlanmışdı.**

Giriş sözü ilə qalereyanın direktoru Ziyafət Hüseynov çıxış etdi. Həlak olan xocalıların xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Sonra tamaşaçılara sərginin əhəmiyyətindən danışıldı. Ardınca qalereyanın əməkdaşı Günay Həsənova «Xocalı harayı» adlı mühazirə ilə çıxış etdi.

Şəhərimizin 21, 20, 13, 16, 18, 1, 2, 4 saylı məktəblərinin şagirdləri və 1 saylı «Qızılgül» uşaq bağçasının balacaları Xocalı soyqırımına həsr olunmuş şeirlər söylədilər.

Tamaşaçılar qalereyada Azərbaycan Respublikası bayrağının və Xocalı soyqırımını əks etdirən fotoplakatın önünə qərənfillər düzdülər.

Sonra isə sərgiyə baxış keçirildi. Nümayiş etdirilən rəsmləri qalereyanın ekskursiyaçısı Şəbnəm Əhmədova şərh etdi. Ümumilikdə isə şəhər məktəblilərinin 40-a yaxın rəsmləri nümayiş olundu. Tədbirdə şəhər məktəblərindən, bağçalarından, mədəniyyət müəssisələrindən 80-ə yaxın tamaşaçı iştirak etdi.

**«İŞIQ»**

**Danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin siyasi kursu ölkə Prezidenti tərəfindən uğurla həyata keçirilir. Müstəqil Azərbaycanımızın bütün sahələrində olduğu kimi, səhiyyədə də sürətli inkişafa nail olunmuşdur. Ölkə başçısının səhiyyə sahəsində müəyyən etdiyi proqramların həyata keçirilməsi bəhrəsini verir. Eyni zamanda ölkəmizdə baş vermiş sürətli iqtisadi inkişaf əhalinin hərtərəfli tibbi müayinədən keçməsini də təmin etmişdir.**

# TİBBİ MÜAYİNƏLƏR UĞURLA KEÇİRİLİR



Şəhərimizdə də ölkə başçısının tapşırığına əsasən fevral ayının 17-dən may ayının 1-dək keçiriləcək əhalinin tibbi müayinə tədbirlərinə start verilib. Şəhər mərkəzi poliklinikasında sakinlərin tibbi müayinəsinə başlanılmışdır.

İlk gün müasir tələblərə cavab verən poliklinikaya axın başlanmışdır. Burada işlərin mütəşəkkill təşkil olunduğu göz qabağında idi.

MŞX-nin baş həkimi **F.Səfərov** söhbət zamanı dedi ki, nəzərdə tutulan vaxt-fevralın 17-də poliklinikada müayinələrə başlandı. Müayinələrin aparılması əhalinin sağlamlığının qorunmasına, xəstəliklərin erkən aşkarlanmasına xidmət edir. Əlbəttə, bütün bunlar ölkə başçısı İlham Əliyevin xalqımıza göstərdiyi diqqət və qayğının parlaq nümunəsidir.

Onu da qeyd edək ki, aksiyanın mütəşəkkilliklə başa çatdırılması məqsədilə əvvəlcədən xüsusi komissiya yaradılmışdır.

200-dən artıq həkim, orta tibb işçisi olan poliklinika şöbəsinin ağxalatlılarının cəlb olunduğu sağlamlıq aksiyasına insanlar böyük həvəs göstərirlər. Qrafik üzrə hər gün 300-400 nəfər müayinədən keçir. Aşkarlanan xəstələr nəzarətə götürülərək müalicəyə cəlb olunurlar.

Ehtiyac olan xəstələr müayinə üçün Şirvan Müalicə Diaqnostika Mərkəzinə göndərilir.

Aksiya keçirilən kabinələr uyğun tibbi ləvazimatlarla təmin olunmuşlar.

Profilaktik müayinə zamanı əhaliyə terapevt, cərrah, nevropatoloq, göz həkimi, başqa ixtisaslı həkimlər xidmət göstərirlər.

Rentgenoloq, flüoroqrafik, həmçinin qadınlara mama-ginekoloji baxışlar keçirilir.

May ayının 1-dək davam edəcək sağlamlıq aksiyasını uğurla başa çatdırmaq üçün ağxalatlılarımız əllərindən gələni əsirgəmirlər.

**F.RƏHİMOV**

Müsahibə

# ƏMƏK MÜFƏTTİŞİ MƏSƏLƏYƏ AYDINLIQ GƏTİRDİ

**Belə xəbərləri televiziya kanallarından eşidir, kütləvi informasiya vasitələrindən oxuyuruq: filan şəhərdə, rayonda, qəsəbədə istehsalatda baş vermiş bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində əmək qabiliyyətini itirən şəxsin, necə deyərlər, döymədiyi qapı qalmayıb. Halbuki bu məsələni də qanun çərçivəsində həll etmək mümkündür. Əgər bu məsələ ilə bağlı mövcud qanuna əməl etsək... Daha dəqiq desək «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu 2010-cu ilin 2 iyul tarixindən qüvvədədir.**

Təəssüf ki, heç də hamı-istər sığorta müqaviləsi bağlamaq vəzifəsi daşıyanlar, istərsə də sığorta olunanlar bu qanundan irəli gələn tələblərə düzgün əməl etmirlər. Bu niyə belədir? Elə buna görə də 11 saylı region üzrə Dövlət Əmək müfəttişliyinin məsləhətçi əmək müfəttişi **Aydın Sarıyevə** aşağıdakı suallara aydınlıq gətirməsini xahiş etdik.

**Sual:** Kimlər icbari sığorta müqaviləsi bağlamaq vəzifəsi daşıyırlar?

**Cavab:** Bu Qanuna əsasən aşağıdakılar icbari sığorta müqaviləsi bağlamaq vəzifəsi daşıyırlar: Azərbaycan Respublikasında fəaliyyət göstərən mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri;

Dövlət orqanları;

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

Seçkili orqanlar;

Fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər.

**Sual:** Sığorta olunanlar kimlərdir?

**Cavab:** Aşağıdakı şəxslər bu Qanun əsasında bağlanılan icbari sığorta müqaviləsi üzrə icbari sığorta olunmalıdırlar:

Hüquqi şəxslə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslə qanunvericiliyə uyğun olaraq bağlanılmış əmək müqaviləsi və ya mülki-hüquqi müqavilə əsasında əmək funksiyalarını yerinə yetirən şəxslər, dövlət orqanında çalışan dövlət qulluqçuları və digər şəxslər, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər.

**Sual:** İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində dövlət nəzarətini hansı orqanlar həyata keçirir?

**Cavab:** Sığortalılar tərəfindən bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üzrə qabaqlayıcı tədbirlərin görülməsi və əməyin mühafizəsi üzrə vəzifələrin yerinə yetirilməsi üzərində qanunvericiliyə uyğun olaraq dövlət nəzarətini Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti həyata keçirir.

**Sual:** İcbari sığorta bağlamayanlar hansı məsuliyyəti daşıyırlar?

**Cavab:** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 253-cü-1,2-ci maddəsinə əsasən «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər min beş yüz manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilirlər.

Sonda onu da bildirirəm ki, bu məsələ ilə bağlı hüquqlarınızın, vəzifələrinizin izahı ilə bağlı istənilən vaxt bizə- 11 saylı region üzrə Dövlət əmək müfəttişliyinə (əlaqə telefonları 055-759-00-25, 050-527-96-44) müraciət edə bilərsiniz. Ən əsası isə icbari sığorta olunun. İcbari sığorta xüsusi lisenziya almış «Qala Həyat», «Paşa sığorta», nümayəndəliyi Salyan rayonunda yerləşən «Atəşgah həyat» (əlaqə telefonu 070-323-35-10) sığorta şirkətlərində həyata keçirilir. İcbari sığortaya tələsin!

***Müsahibəyə görə sağ olun.***

**Müsahibəni apardı:**
**F.RƏHİMOV**

**Şirvan şəhər Gənclər və İdman İdarəsi 2013-cü ildə gənclər və idman siyasətinin həyata keçirilməsi, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı bir sıra məqsədyönlü tədbirlər həyata keçirmişdir.**

# NAİLİYYƏTLƏRLƏ YADDA QALAN İL



Gənclərdə vətənpərvərlik, vətəndaşlıq hisslərinin yüksəldilməsinə, hərbi xidmətə hazırlanmasına, yeniyetmə və gənclər arasında milli ideologiyanın gücləndirilməsinə, istedadlı yeniyetmələrin üzə çıxarılması məqsədi ilə həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirilmişdir.

2013-cü il ərzində «Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramının müvafiq bəndinin icrası diqqət mərkəzində saxlanılmışdr. Xalqımızın tarixinə qanlı səhifələr kimi daxil olunmuş 20 Yanvar və Xocalı faciələri ilə əlaqədar anım mərasimləri, 31 mart Azərbaycaanlıların soyqırımı günü ilə əlaqədar isə elmi-praktiki konfrans, 9 noyabr Bayraq Günü münasibətilə dəyirmi masa, 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibətilə «N» saylı hərbi hissədə əsgər və zabitlərlə görüş, 18 oktyabr «Müstəqillik günü» ilə əlaqədar yeniyetmələr arasında vətənpərvər mahnı müsabiqəsi keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev-Azərbaycan gəncliyinin tərəqqisi» mövzusunda elmi-praktiki konfrans, 15 iyun «Milli Qurtuluş günü» ilə əlaqədar «Heydər Əliyev- Azərbaycan gəncliyinin vətənpərvərlik məktəbidir» mövzusunda dəyirmi masa, 17 noyabr «Milli Dirçəliş günü» ilə əlaqədar «Heydər Əliyev- Azərbaycançılıq məfkurəsinin işığıdır» mövzusunda elmi-praktiki konfrans təşkil edilmişdir.

Bundan başqa yeniyetmə və gənclərin vətənpərvər ruhda böyüməsi, onların hərbi xidmətə hazırlanması məqsədilə VII-VIII sinif şagirdləri arasında «Cəsurlar» və X-XI sinif şagirdləri arasında «Şahin» hərbi idman və turizm oyunlarının şəhər birincilikləri keçirilmişdir. Şəhərimizin «Cəsurlar» komandası zona birinciliyində də uğurla çıxış edərək III yerə layiq görülmüşdür.

Gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində idarə tərəfindən müəyyən işlər görülmüş, bir sıra tədbirlər təşkil olunmuşdur. Belə ki, aktiv və yaradıcı gənclərin iştirakı ilə 2 fevral «Gənclər günü», «Novruz bayramı» və 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə musiqili -əyləncəli tədbirlər keçirilmişdir.

Tarixi keçmişimizin gənclərə aşılanması, qədim yurd yerlərimizlə tanışlıq, milli-mənəvi dəyərlərimizin təbliği və gənclərin asudə vaxtlarının səmərəli keçməsi məqsədi ilə tarixi yerlərimizə ekskursiyalar təşkil edilmişdir.

Ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında «Xəmsə» milli intellektual oyunu üzrə şəhər birinciliyi, «Azərbaycanı tanı» adı altında intellektual bilik yarışması, idarə müəssisə və təşkilatlarda çalışan gənclər arasında «Breyn-Rinq» İntellektual oyunu üzrə şəhər birincilikləri keçirilmişdir.

Mingəçevirdə «Xəmsə» milli İntellektual oyunu üzrə keçirilən zona yarışında şəhərimizin gənclərdən ibarət yığma komandası I yeri tutmaqla finala vəsiqə qazanmış, Bakı şəhərində final mərhələsində bütün rəqiblərini üstələyərəq VI Respublika çempionu adına layiq görülmüşdür. Naxçıvan şəhərində yeniyetmələr arasında keçirilən «Xəmsə» milli İntellektual oyununun respublika birinciliyində isə komandamız III yerə çıxmışdır. Ümumilikdə 2013-cü il ərzində 31 daxili tədbirdə 3634 nəfər, 13 respublikamiqyaslı tədbirdə isə 144 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

2013-cü il ərzində şəhərdə bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması istiqamətində idarə digər əlaqədar təşkilatlarla birgə müəyyən işlər həyata keçirilmişdir. Belə ki, orta ümumtəhsil məktəblərinin oğlan və qızları arasında basketbol üzrə şəhər birinciliyi, 1999-2000; 2011-2002-ci il təvəllüdlü yeniyetmələr arasında yunan-Roma güləşi və sərbəst güləş üzrə şəhər birincilikləri, Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında kikboksinq idman növü açıq turnir və s. tədbirlər kütləviliyi ilə də yadda qalmışdır.

Bundan əlavə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş yeniyetmələr arasında dama, idarə və müəssisələr arasında isə futbol, ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar yeniyetmələr arasında yunan-Roma güləşi və dama idman növləri üzrə xatirə turnirləri keçirilmişdir.

Ahılların asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə ahıllar arasında şahmat və nərd üzrə şəhər birincilikləri təşkil edilmişdir.

2013-cü il ərzində 36 daxili tədbirdə 3181 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

2013-cü il ərzində Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən respublikamiqyaslı yarışlarda 607 nəfər yeniyetmə və gənc şəhərimizi təmsil etmişdir. Onlardan 52 nəfər I yerə, 38 nəfər II yerə, 59 nəfər isə III yerə layiq görülmüşdür. Bundan əlavə Astara rayonunda əltopu id-



man növü üzrə yeniyetmə oğlanlar arasında idman məktəblərinin VI Respublika oyunlarının zona yarışlarında şəhərimizin komandası uğurla çıxış etmişdir.

Dövlət Gömrük Komitəsinin «Gömrükçü» İdman Sağlamlıq Mərkəzi tərəfindən Bakı şəhərində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında ənənəvi respublika turnirində şəhərimizdən 30 idmançı iştirak et-



mişdir.Onlardan 4 nəfər I yerə, 2 nəfər III yerə layiq görülmüş və şəhərimiz komanda hesabında I yerə layiq görülmüşdür.

Ümumilikdə respublika, beynəlxalq, qitə və dünya miqyaslı yarışlarda 627 nəfər yeniyetmə və gənc şəhərimizi təmsil etmişdir. 59 nəfər I yerə, 40 nəfər II yerə, 65 nəfər III yerə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən 01.04.2010-cu il tarixdə təməli qoyulmuş Şirvan Olimpiya İdman kompleksinin tikintisi başa çatdırılmış, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 01 iyul 2013-cü il tarixdə şəhərimizə səfəri zamanı Kompleksin açılış mərasimi keçirilmiş və idmançıların istifadəsinə verilmişdir. Halhazırda əksər idman növləri üzrə məşqlər Olimpiya İdman Kompleksində keçirilir və bu da idmançılarımızın yüksək nəticələr əldə etməsinə şərait yaradır. Bundan əlavə «Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramının icrası istiqamətində şəhərimizdə « Gənclər evi»nin tikintisi davam etdirilmiş və 2014-cü ildə tamamlanaraq gənclərimizin istifadəsinə veriləcək ki, bu da Şirvan gəncləri üçün növbəti töhfə olacaqdır.

Çalışacağıq ki, bu ili də uğurlu göstəricilərlə yadda qalan edək.

**Əfqan HƏSƏNOV,**
**gənclər və idman idarəsinin**
**aparıcı-məsləhətçisi**



# TƏDBİR BÖYÜK ŞAİRƏ HƏSR OLUNMUŞDU

**Şirvan şəhər B.Aslanov adına 16№-li tam orta məktəbin kitabxanasında unudulmaz şairimiz Məmməd Arazın anadan olmasının 80-cı ildönümünə həsr edilmiş ədəbi-bədii kompazisiya keçirildi. Bu tədbiri məktəbin ibtidai sinif müəllimi 3e sinfinin rəhbəri C.Qafarova rəhbəri olduğu sinfin şagirdləri ilə birgə hazırlamışdı.**

Tədbir mərhum xalq artisti Mikayıl Mirzənin ifasında M.Arazın «Ayağa dur, Azərbaycan» şeirinin videoçarxda nümayiş olunması ilə başladı. Sonra şagirdlərdən Sevda Şıxəlizadə, Mayis Qarayev, Rüstəm Mirzəyev, Günay Cəlilzadə, Rüstəm Abdullayev M.Arazın şeirlərindən nümunələr söylədilər.

Aparıcılar Qızılgül Zeynallı, Fərid Əliyev və Kənan Rzayevin dahi şairin həyat və yaradıcılığından verdikləri maraqlı məlumatlardan sonra şagirdlərin xorla söylədikləri şeir kompazisiyası da tədbir iştirakçılarına xoş təsir bağışladı.

Məktəbin direktoru, pedaqoji elmlər namizədi Çingiz Şirəliyev sonda çıxış edərək ibtidai sinif şagirdlərinin belə yüksək səviyyədə tədbir hazırladıqlarından fərəh hissi keçirdiyini dilə gətirdi. O 3e sinfinin bütün şagirdlərinə və onların sinif rəhbəri C.Qafarovaya öz təşəkkürünü bildirdi.

**Hörmət CƏLİLOV,**
**16№-li tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini**

BƏLƏDİYYƏLƏRİN NƏZƏRİNƏ!

# «Yerli (bələdiyyə) vergilərlə bağlı Metodiki Vəsait» haqqında

**Azərbaycan Respublikası Prezidentinin «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə 4 aprel 2002-ci il tarixli 683 nömrəli fərmanın 2-ci bəndinə əsasən bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsində metodik rəhbərliyin həyata keçirilməsi Azərbaycan Respublikası Vergilər Nazirliyinə həvalə edilmişdir. Qeyd olunan Fərmanın icrası ilə əlaqədar olaraq ötən dövrlərdə zəruri metoiki vəsaitlər çap etdirilib bələdiyyələrə çatdırılmış, onlarla mütəmadi görüşlər keçirilmiş, daxil olmuş sorğular müəyyən olunmuş qaydada cavablandırılmış və hazırda bu işlər davam etdirilməkdədir.**

Bununla yanaşı, bələdiyyələrlə bağlı hazırlanmış metodiki vəsaitin təkmilləşdirilməsinə, idarətmənin müxtəlif sahələrində qabaqcıl informasiya-kommunikasiya texnologiyaları geniş şəkildə tətbiq olunduğu dövrdə bələdiyyələrdə elektron xidmətlərin tətbiqinə, yerli vergi və ödənişlərin hesablanması və ödənilməsi sahəsində mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikası Vergilər Nazirinin 27.12.2013-cü il tarixli 1317040101613400 nömrəli əmri ilə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait» təsdiq edilmiş və nazirliyin rəsmi İnternet səhifəsində yerləşdirilmişdir.

Göstərilənləri nəzərə alaraq Metodiki Vəsaitlərin tətbiqi ilə bağlı yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin, onların əmlakının (torpağının) və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, yerli (bələdiyyə) vergilər olan fiziki şəxslərin əmlak və torpaq vergisinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin və yerli ödənişlərin hesablanması, ödənilməsi və uçota alınması qaydaları barədə müvafiq məlumatlandırma işlərinin aparılması və xidməti istifadə üçün metodiki vəsaitlər və onların əlavələri Sizin elektron qutunuza göndərilmişdir.

Əlavə məlumatı Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinə və ya rəsmi İnternet saytına (www.taxes.gov.az) müraciət etməklə, eləcə də 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (telefon tel: 021 216-11-02) və ya müvafiq hesab etdiyiniz Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (Salyan səhəri, H.Əliyev prospekti, tel: 021 255-14-10, Sabirabad şəhəri İ.İsgəndərov küçəsi, tel: 021 235-93-21, Saatlı şəhəri, Q.Qarayev 5, tel: 021 285-39-99, Neftçala şəhəri, H.Əliyev prospekti 31, tel: 021 263-40-11 və Hacıqabul İ.Qayıbov küçəsi 15, tel: 021 204-35-83) zəng etməklə və ya şəxsən gəlməklə əldə edə bilərsiniz.

**5 saylı Ərazi Vergilər İdarəsi**

# İLLƏR XƏSTƏSİNƏ KÖMƏK EDİN!

**Ələsgərov Ələsgər Rafiq oğlu illər xəstəsidir. 14 ildir ki, 29 yaşlı bu gənc yatağa məhkumdur. Həkimlərin dediyinə görə Ələsgər tezliklə ayağa qalxa bilər. Amma bir şərtlə: yataq xəstəsi ciddi müalicə olunarsa...**

Ailənin maddi durumu onun müalicə olunub ayağa qalxmasına qətiyyən imkan vermir.

Əziz oxucular, imkanlı insanlar! Yataq xəstəsinə kömək edin! Bu Allaha da xoş gedər.

Ələsgərov Ələsgər Rafiq oğlunun Kapital Bankın Şirvan şəhər filialında hesabı açılmışdır.

KAPİTAL BANK
Şirvan şəhər filialı
Filialın kodu 200413
Filialın m\h AZ37 NABZ01350100000000001944
Vöen 9900003611
S.W.İ.F.T.BİK A.I.I.BAZ2X
Bankın ünvanı M.Rəsulzadə 1
Telefon 5-12-00 5-11-81
FAKS 5-11-81
Müştərinin adı: Ələsgərov Ələsgər Rafiq oğlu
H\H AZN AZ20AİİB 38010019444100511141



# QAZ CİHAZLARINDAN İSTİFADƏ EDƏRKƏN TƏHLÜKƏSİZLİK QAYDALARINA RİAYƏT EDİN!

**Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün aşağıdakı təhlükəsizlik qaydalarına əməl etmək vacibdir:**

-Yanğın, partlayış və dəm



qazından zəhərlənmə kimi fövqəladə halların baş verməməsi üçün obyektlərdə və yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır!

-Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

-Müəyyən məqsədlər üçün qaz cihazlarından qurğu və aqreqatların, hissələrin çıxarılmasına yol vermək olmaz. Qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri yalnız qaz təsərrüfatı müəssisəsi tərəfindən həyata keçirilməlidir!

-Mənzildə adam olmayanda içəri daxil olarkən qazın sızmamasına tam əmin olmamış işığı yandırmaq, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək, açıq alovdan istifadə etmək olmaz!

-Qış mövsümü başlanmazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, bütün sobaların tüstü bacaları təmizlənməlidir!

-Qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, uşaqlara, xəstələrə etibar edib evdən çıxmaq olmaz!

-Qaz cihazlarına qazın nəql edilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır!

-Qaz kəmərlərindən və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir!

-Qaz cihazlarından istifadə edərkən pəncərənin nəfəsliyi açıq vəziyyətdə olmalıdır. Mənzili tərk edərkən qaz cihazları mütləq söndürülməli, qaz borularının ventilləri bağlanmalıdır!

-İşlək qaz cihazlarını nəzarətsiz qoymaq, sobaların həddindən artıq qızmasına yol vermək olmaz!

-Mətbəxdə məişət qaz sobalarının üzərinə qazan, çaydan və s. suyun səviyyəsi elə olmalıdır ki, su qaynayanda daşmasın. Belə ki, qaynayan su daşıb odluğu söndürə bilər. Bu isə qaz sızması ilə nəticələnər və partlayış baş verər!

-Vanna otağında nəfəslik, təbii işıq mənbəyi, ventilyasiya kanalı olmalıdır. Qapı bayır tərəfə açılmalı və qapının aşağısında hava daxil olması üçün dəliklər olmalıdır!

-Qaz cihazları olan otaqlarda tezalışan məhsulların yerləşdirilməsi və saxlanılması təhlükəlidir!

-Mətbəxdə, mənzildə, vanna otağında, pilləkən qəfəsində, zirzəmidə qaz iyi hiss etdikdə açıq alovdan, elektrik cihazlarından istifadə etməməli, dərhal 104 nömrəli telefonla qaz idarələrinin Qəza Xidmətinə xəbər verilməlidir!

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti**

# ETİBARSIZDIR

Bədəlova Fəxrəndə Nadir qızına məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Vidadi Aydın oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# ŞİRVAN REGİONAL ƏDLİYYƏ ŞÖBƏSİ SEMİNAR MÜŞAVİRƏ KEÇİRDİ

**Ədliyyə Nazirliyinin Şirvan regional ədliyyə şöbəsinin təşkilatçılığı ilə Şirvan şəhərində Şirvan və Hacıqəhrəmanlı bələdiyyə sədrləri, bələdiyyə üzvləri və qulluqçularının iştirakı ilə «Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında» və «Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun gücləndirilməsi» mövzularında seminar-müşavirə keçirilmişdir.**

Şirvan regional ədliyyə şöbəsinin rəisi Nizami Hüseynov seminar- müşavirəni giriş sözü ilə açaraq son vaxtlar Ədliyyə Nazirliyi tərəfindən aparılan islahatlar və eyni zamanda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzi tərəfindən bələdiyyə üzvləri və qulluqçularının maarifləndirilməsi, onlara metodik köməklik göstərilməsi məqsədilə aparılan məqsədyönlü işlər barədə iştirakçıları məlumatlandırdı.

Sonra şöbənin məsləhətçisi Rəşad Hüseynov hər iki mövzu ilə bağlı seminar iştirakçılarına ayrı-ayrılıqda ətraflı məlumat verdi.

Mövzular ətrafında Şirvan bələdiyyəsinin sədri Əfsəlağa Babayev, Hacıqəhrəmanlı bələdiyyəsinin sədri Solmaz Abdullayeva, Şirvan bələdiyyəsinin qulluqçusu Məlikağa Məmmədov və başqaları tərəfindən verilən suallar şöbənin əməkdaşları tərəfindən cavablandırıldı.

N.Hüseynov seminarın işinə yekun vuraraq qarşıda duran vəzifələr barədə öz fikirlərini bildirdi. O, bələdiyyə aktlarının, həmçinin şöbə tərəfindən bələdiyyələrə göndərilən təklif və tövsiyələrin müzakirəsinə dair qərarların qanunla müəyyən olunmuş müddətdə şöbəyə göndərilməsini, bələdiyyə üzvlərinin və qulluqçularının Ədliyyə Akademiyasında peşə hazırlığına və ixtisasının artırılmasına cəlb olunmasının vacibliyini, korrupsiya cinayətlərinə bələdiyyələr tərəfindən yol verilməməsi, bələdiyyə sənədlərinin qanunla müəyyən edilmiş müddətdə və qaydada arxiv orqanlarına təhvil verilməsini, bələdiyyə torpaqlarının ayrılması ilə bağlı qərar qəbul edilərkən qanunvericiliyin tələblərinə əməl olunmasını və s. bələdiyyə sədrlərinin nəzərinə çatdırdı.

Şirvan Bələdiyyəsinin sədri Əfsəlağa Babayev seminarın təşkil edilməsi və aktual mövzuların seçilməsi ilə əlaqədar iştirakçılar adından Regional ədliyyə şöbəsinin rəhbərliyinə öz minnətdarlığını bildirdi.

**Rasim NƏHMƏDOV**


Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq" qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200